# Sosial xidmətlərin tətbiqində əsas meyar vətəndaşın razı qalmasıdır

***Ölkədə vətəndaşlara göstərilən sosial xidmətlərin sayı və keyfiyyəti gündən günə artır. Bu günlərdə tətbiq edilən yeni qaydanın – Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyindəki Dövlət Tibbi – Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əlilliyin qiymətləndirilməsi məsələləri üzrə vətəndaşların əyani qəbulunun yalnız onlayn qaydada və ya “Whatsapp” ilə qeydiyyat əsasında aparılmasını daha məqsədəuyğun hesab edə bilərik. Qəbulun bu qayda ilə aparılmasında məqsəd COVID –19 infeksiyasının yayılmasının qarşısının alınması və əlilliyi olan şəxslərin bu virusdan qorunması, habelə vətəndaşların agentlikdə qəbul üçün daha rahat müraciət imkanlarına malik olmaları, qurumda əyani qəbul prosesinin operativ və sistemli təşkili, vətəndaş məmnunluğunun artırılmasıdır.***

Vətəndaşlara xidmətin keyfiyyətindən danışanda, öncə onu deməliyik ki, Prezident İlham Əliyevin 29 dekabr 2021-ci il tarixli sərəncamının icrası olaraq Vətən müharibəsinin iştirakçılarına “Müharibə veteranı” adı və Prezidentin aylıq təqaüdünün təyinatına artıq başlandı. Qeyd edək ki, altsistemə barələrində məlumat daxil edilmiş hərbi qulluqçulara 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü (80 manat) təyin edilib. Təqaüdlərin təyinatı hərbi qulluqçuların müraciəti olmadan, heç bir sənəd təqdim edilmədən, e-sistem üzərindən proaktiv qaydada aparılır. Təyin edildiyi tarixdən asılı olmayaraq təyinat tarixi 2022-ci ilin 1 yanvarından rəsmiləşdirilərək ödənilir. Qeyd edək ki, Vətən müharibəsinin bütün iştirakçılarına “Müharibə veteranı” adının verilməsi və Prezidentin aylıq təqaüdünün təyinatı prosesi yaxın günlərdə tam yekunlaşacaq. Müharibə veteranı kimi Prezidentin aylıq təqaüdü təyin edildiyi andan şəxsin adında olan telefon nömrəsinə bu barədə, habelə təqaüd kartını hansı bankdan əldə edəcəyinə dair SMS göndərilir.

ƏƏSMN-nin Sosial Xidmətlər Agentliyi 2022-ci ildə yeni sosial xidmət layihələrinə başlayacaq. Agentliyin həssas qruplara xidmətlə bağlı gördüyü işlərdən söz açanda xatırlatmalıyıq ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, şəhid ailələri və müharibə əlillərinə 2018-ci ildə 626 ədəd, 2019-cu ildə bundan 50 faiz çox olmaqla 934 ədəd, 2020-ci ildə əvvəlki ilə nisbətən 70 faiz çox, yəni 1572 mənzil, və ya fərdi ev verilib. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021– 2025-ci illərdə daha 11 min mənzil və fərdi evin şəhid ailələrinə və müharibə əlillərinə təqdim edilməsi nəzərdə tutulub. İndiyədək isə 12 min 300 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi ev təqdim edilib. Keçən il mənzillə təmin edilən şəxslərdən 83 nəfəri Vətən Müharibəsi Qəhrəmanı, eləcə də, şəhid olmuş Vətən Müharibəsi qəhrəmanlarının ailə üzvləri olub. Bununla yanaşı, ötən il 271 Çernobıl əlili, dövlət uşaq müəssisələrinin 203 məzunu, 275 nəfər gözdən əlilliyi olan şəxs də mənzillə təmin olunub.

Həssas kateqoriyadan olanların avtomobillə təminatı işləri də aparılıb. Qeyd edək ki, 2021-ci ildə 164 nəfər Vətən müharibəsi əlili minik avtomobili ilə təmin edilib. Ümumilikdə isə ötən dövrdə 7400 avtomobil qeyd olunan kateqoriyadan olan vətəndaşlarımıza təqdim edilib. Həmin kateqoriyadan olanlara diqqət və qayğının təzahürü kimi, 2021-ci il ərzində şəhid ailələrinin üzvləri, Vətən müharibəsi əlilləri, əlilliyi olan digər şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar da daxil olmaqla 4455 şəxs yollayışla təmin olunaraq sanatoriya – kurort və müalicə mərkəzlərinə göndərilib. Ötən il 8834 vətəndaşa evdə sosial-məişət xidməti göstərilib ki, onlardan 7333-ü ahıl, 1501-i 70 yaşdan aşağı olan, tənha yaşayan şəxslər olub. Hazırda 3885-i qadın, 1056-sı kişi olmaqla 4941 tənha ahıl və ya əlilliyi olan şəxsə evdə, agentliyin 13 müəssisəsi üzrə 1430 şəxsə stasionar şəraitdə sosial-məişət xidməti, eləcə də, 6 yaşadək olan 74 uşağa səyyar sosial reabilitasiya xidməti göstərilir.

ƏƏSMN tərəfindən baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların sosial reabilitasiyası üzrə işlər də davamlı olaraq diqqətdə saxlanır. Peşə-əmək Reabilitasiyası Mərkəzinin bu il Xaçmaz rayonunda da filialı fəaliyyətə başlayacaq. Burada əlilliyi olan şəxslərə peşə-əmək reabilitasiyası və bir sıra reabilitasiya xidmətləri göstəriləcək. 2021-ci ildə İraq və Suriyadan gətirilmiş 81 vətəndaşımızdan 49-u agentliyin sosial xidmət müəssisəsinə yerləşdirilib. Sosial işçilər onlarla psixo-sosial reabilitasiya işlərini davam etdirir. Qeyd edək ki, bu il Füzuli rayonunda yeni mərkəz istifadəyə veriləcək, eyni zamanda bütün stasionar sosial xidmət müəssisələrində peşə-əmək reabilitasiyası kabinetləri yaradılacaq.

Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində 2 günərzi xidmət qrupunun, eyni zamanda ahıl şəxslər üçün sosial xidmət müəssisəsində günərzi qayğı xidmətinin yaradılması nəzərdə tutulub. Bu günlərdə, həmçinin agentliyin təqdim etdiyi sosial xidmətlər, o cümlədən, məişət zorakılığı halları və çətin həyat şəraitində olan uşaqlarla bağlı, habelə onlayn-psixoloji dəstəyin göstərilməsi ilə əlaqədar müraciətlərin cavablandırılması üçün Qayğı Çağrı Mərkəzi istifadəyə verilib.

ƏƏSMN-nin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin (DMA) aktiv məşğuluq tədbirlərinin hədəflərindən biri də gənclərin məşğulluğu, onların əmək bazarına inteqrasiyasının dəstəklənməsidir. Təkcə 2021-ci il ərzində agentlik tərəfindən 20363 gənc münasib işlə təmin edilib. Özünüməşğulluq proqramının icrasında da gənclərin iştirakına xüsusi önəm verilir. Ötən il də 4288 gənc özünüməşğulluq proqramına cəlb olunaraq, proqramın dəstəyi ilə öz kiçik biznes sahələrini yaradıb.




Agentliyin peşə hazırlığı kurslarına ötən il böyük əksəriyyəti gənclər olan 1000 nəfər cəlb olunub, 2 minə yaxın gəncə isə peşəyönümü məsləhət xidmətləri göstərilib. Bu ildən agentlik beynəlxalq sertifikatlı mütəxəssis hazırlığı kurslarına başlayacaq ki, kurslara cəlb ediləcək şəxslərin böyük əksəriyyəti gənclər olacaq. Gənclərin əmək bazarına inteqrasiyasına dəstək olan yeni proqramlardan biri də Dövlət Məşğulluq Agentliyi və Gənclər Fondunun birgə icra etdiyi “Gənclərin Dayanıqlı Məşğulluğu Proqramı”dır. Proqram üzrə gənclərin bilik və bacarıqlarının artırılması, potensiallarının, ideyalarının reallaşdırılması üçün “Peşəkar Gənclik”, “İşəgötürənlər üçün Əməkhaqqı Subsidiyası”, “Biznesini Yarat Marafonu” layihələri çərçivəsində işlər aparılır.

Dövlət Məşğulluq Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin tərəfdaşlığı ilə bu günlərdə yeni layihəyə – “Gənclərin biznes emalatxanası” layihəsinə də başlanıb. Layihənin məqsədi peşə təhsili alan sonuncu kurs tələbələrinin biznes təlimlərinə cəlb olunması və özünüməşğulluq proqramı çərçivəsində mikrobiznesləri qurmasıdır. DMA, BMT-nin İnkişaf Proqramı və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) “Azərbaycanda İnnovasiya və Məşğulluğun İnkişafı” layihəsi çərçivəsində “Peşəkar İnkişaf və İnnovasiyalar Platforması” (PROGRO) da hazırlanıb. Platformanın məqsədi gənclərin peşəkar inkişafla bağlı maarifləndirilməsi və onların gələcək iş həyatına hazırlığına dəstək verməkdir. Agentliyin nəzdində Karyera Mərkəzlərinin Koordinasiya Şurası yaradılıb. Şuranın yaradılmasında məqsəd vahid standartların müəyyən edilməsi və tətbiqi, karyera mərkəzi olmayan ali təhsil müəssisələrində belə mərkəzlərin yaradılmasına dəstək göstərilməsi, metodiki bazanın, yerli müsbət təcrübələrin paylaşılması, xarici təcrübənin araşdırılması və tətbiqinə dəstək göstərməkdir.

Ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rola malik “Könüllü DOST” proqramına böyük marağın nəticəsi kimi, ötən dövrdə bu proqrama böyük əksəriyyəti gənclər olan 50 minə yaxın şəxs müraciət edib. Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə nazirliyin tabeliyində 2019-cu ilin may ayından DOST agentliyi və 5 DOST mərkəzi yaradılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası sosial sahələr üzrə 156 xidmətin “bir pəncərə”dən, şəffaf və operativ, vətəndaş məmnunluğu prinsipinə uyğun təqdim edilməsinə imkan verən unikal bir layihədir. DOST mərkəzlərinə ötən dövrdə 700 mindən çox vətəndaş müraciəti qeydə alınıb və DOST xidmətlərindən vətəndaş məmnunluğu səviyyəsi 98 faizdir. Bu nailiyyətin əldə olunmasında “Könüllü DOST” proqramının iştirakçıları da dəstəyini verir. Ötən dövrdə DOST mərkəzlərinə “Gənc DOST” altproqramı üzrə 1700-ə yaxın gənc könüllü cəlb olunub. Onlar mərkəzlərdə vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, vətəndaş axınının, növbələrin idarə edilməsində köməklik göstərirlər. Eyni zamanda, vətəndaşların məlumatlandırılması, xidmətlər üzrə sənədlərin siyahısı ilə tanış edilməsi, onların müxtəlif anket, forma və s. hazırlamalarında yardım edilməsi, mərkəzlərə gələn əlilliyi olan şəxslərə diqqət və qayğı göstərilməsi, rəy sorğularının keçirilməsi və s. işləri yerinə yetirirlər.

“Gənc DOST” altproqramının gənclər üçün əhəmiyyəti işgüzar vərdişlər əldə etmə, fərdi inkişaf, asudə vaxtın səmərəli keçirilməsi, yeni dostlar və karyera yolunda ilk uğurlu addımların təməli baxımından faydalıdır. Könüllülərin dünyagörüşlərinin inkişaf etdirilməsi məqsədilə DOST agentliyində “Könüllü klubları” layihəsi də fəaliyyətə başlayıb. Bu klublar şahmat, film, yaradıcılıq və başqa sahələri əhatə edir. Layihə çərçivəsində hər həftə müxtəlif tədbirlərin keçirilməsi planlaşdırılır. Bakıdakı DOST mərkəzlərinə müraciət üçün qeydiyyat prinsipi də artıq ötən il aradan qaldırılıb. Bakının hansı rayonunda qeydiyyatda olmasından asılı olmayaraq paytaxt sakinləri şəhərdə istənilən DOST mərkəzinin xidmətlərinə müraciət edə bilərlər. Keçən il DOST mərkəzlərində 416,2 min, ümumilikdə ötən dövrdə 700 minə yaxın vətəndaşa birbaşa və e-qaydada müraciətlər üzrə xidmət göstərilib.

Bu il DOST mərkəzləri şəbəkəsi daha da genişlənəcək. Hazırda respublikanın bir sıra bölgələrində, o cümlədən Quba, Sumqayıt, Gəncə, Sabirabad, Masallı və başqa rayon və şəhərlərdə də DOST mərkəzlərinin açılmasına hazırlıq işləri aparılır. Bu isə bölgələrdəki vətəndaşların göstərilən xidmətlərdən asan, şəffaf yararlanmasını təmin edəcək.

***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***